# Mükafatlandırma siyasətinin əsas prinsipləri (2015)

Bankda mükafatlandırma siyasəti tətbiq edilən əməkdaşların mükafatlandırılması aşağıdakı əsaslar üzrə həyata keçirilir:

1. Bankın ümumi fəaliyyətinin nəticələrinə görə;
2. gəlir gətirilməsinə yönəlmiş risk-əsaslı fəaliyyətlərinin nəticələrinə görə;
3. nəzarətin həyata keçirilməsinin effektivliyinə görə;
4. cari fəaliyyətində qənaətbəxş nəticələrin əldə edilməsinə görə;
5. gəlir gətirilməsinə yönəlmiş fəaliyyətlərinin həcminə və keyfiyyətinə görə;
6. fəaliyyətlərinin həcminə və keyfiyyətinə görə.

Bankın rəhbərliyinə aid olan şəxslərə hər il üçün (təxirə salınmış mükafatlar istisna olmaqla) mükafatın verilməsi və onun həcmi barədə qərar Səhmdarların Ümumi Yığıncağı tərəfindən, digər kateqoriyalara aid bank əməkdaşlarının mükafatlandırılması üzrə qərar isə Müşahidə Şurası tərəfindən təsdiq edilir.